**UOT: 39;572.9**

# AZƏRBAYCAN NAĞILLARINDA AİLƏ MƏİŞƏTİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

**A.T.ABDULLAYEV**
***Bakı Dövlət Universiteti***
***Adilabdullayev@mail.ru***

*Məqalədə Azərbaycan nağıllarında ailə məişətinin öyrənilməsindən bəhs edir. Nağıllarımızda qədim adət-ənənələr, xeyirlə şərin mübarizəsi ön plana çəkilir və əsasən yüksək insani keyfiyyətlər təbliğ olunur. Azərbaycan nağılları əvəzsiz etnoqrafik mənbə kimi ailə- məişət münasibətlərinin müxtəlif tərəflərini əks etdirir*

**Açar sözlər:** nağıl, etnoqrafiya, ailə məişəti, mənbə

Azərbaycan ərazisində onun zəngin tarixi keçmişinə müvafiq çoxsaylı və olduqca rəngarəng maddi-mənəvi mədəniyyət abidələri qalmışdır. Onların öyrənilməsi ilə Azərbaycanın yüksək mədəni irsə malik qədim mərkəzlərdən biri olması, özünəməxsus adət-ənənələri ilə seçilən, dünya sivilizasiyasına saysız töhfələri olan bir xalq olması artıq təsdiq edilmişdir. Odur ki, uzun zaman kəsiyində bu mədəni irs ənənəçiliyə və varisliyə əsaslanaraq inkişaf etmiş, zənginləşmiş və ümumbəşəri mədəni irsin tərkib hissəsinə çevrilmişdir.

Azərbaycanın şifahi xalq yaradıcılığının etnoqrafik cəhətdən tədqiqi də tarixi-mədəni irsimizin təbliğinə və yaşadılmasına xidmət edir. Bu yönümdə Azərbaycan xalq nağıllarının əhəmiyyəti danılmazdır. Müxtəlif məzmunlu nağıllarımız ailə məişətimizin fərqli xüsusiyyətlərini əks etdirməklə bu varisliyin qorunmasında mühüm rol oynayır. Hələ kiçik yaşlarından tam məqsədyönlü olmasa da xalqımızın qədim adət-ənənələrini nağıllardan mənimsəyən, onu xəyallarında yaşadan azyaşlı uşaqlar bir neçə illər sonra, artıq cəmiyyətin iqtisadi-siyasi-mədəni həyatında aktiv iştirakçıya çevrildikdən sonra, şüuraltında topladıqları məlumatları tətbiq edir, həyatda müqayisələr aparır, xeyir və şərin mübarizəsində özlərinin yerini müəyyənləşdirir, cəmiyyətdə bir mövqe tutmağa çalışırlar. Bir sözlə, nağıllarımız hamımızın körpəlikdən qanımıza hopmuş qəhrəmanlıq, şücaət, məhəbbət və digər bu kimi hissləri aşılamaqla bu dünyadan köçənə qədər bizi müşayiət edir.

Azərbaycan nağılları ailə məişətimizin müxtəlif cəhətlərini saf və sadə formada, mübaliğəsiz, anlaşıqlı və axıcı dildə göstərən etnoqrafik mənbə rolunda çıxış edə bilir. Maraqlıdır ki, istər islama qədər, istərsə də islamla bağlı hər hansı adət-ənənəyə nağıllarda rast gəlmək mümkündür. Bunun içərisində xalqımızın ailə-nigah münasibətlərinin, onunla paralel inkişaf edən inancların bir sıra xüsusiyyətlərinin nağıllarımızda əks olunması da diqqətəlayiqdir. Məlum olduğu kimi? etnoqrafik tədqiqatlar nəticəsində ibtidai icma dövründə və sonrakı dövrlərdə ailə quranların məkan mənsubiyyəti ilə əlaqədar cəmiyyətdə matrilokal nigah münasibətlərinin mövcud olması müəyyənləşdirilmişdir. Matrilokal münasibətlərin qalıqları «Ağ quş» nağılında belə göstərilmişdir: «Padşahın zənəni hamilə olur. Uşağın anadan olmasına az qalmış padşah zənənini öz qayınatasının yanına göndərir və orada bir oğlu olur» (1, 202-203). Buradan görünür ki, ibtidai adətin qalıqlarına əsasən hətta hökmdar da bu adətlərə tabe olaraq, ana xaqanlığının izlərini gündəlik məişət həyatında saxlamışdır. Oxşar adət hal-hazırda Azərbaycanda bir çox bölgələrimizdə bu və ya digər şəkildə tətbiq edilməkdədir. Doğrudur, matrilokal məskunlaşma elmi ədəbiyyatlarda kişinin və övladın qadının ailəsi daxilində yaşamasını göstərsə də, sonrakı inkişaf prosesində hətta patriarxal münasibətlərin ən kəskin formasında belə bu məsələ özünü büruzə verir. İstənilən halda qadının hüquqları sonradan nə qədər məhdudlaşdırılsa da müəyyən mərasimlərlə ana xaqanlığın izləri qorunub saxlanılmışdır.

Məlum olduğu kimi, ailə məişətimizdə göbəkkəsmə adəti də mühüm yer tuturdu. Adətən, eyni vaxtda anadan olmuş qız və oğlanın valideynləri əvvəlcədən gələcəkdə övladlarının evlənəcəklərini qərarlaşdırır və bu evliliyin vədi əvvəlcədən alınırdı. Belə nigah forması əsasən qohumlar və ya yaxın dostlar içərisində daha çox müşahidə olunurdu. «İbrahim» nağılında deyilir ki, Əhmədin və onun qardaşı Məhəmmədin uzun müddət övladları olmurdu. Bir dəfə Əhməd bulaqdan su içdikdə bir ədəd qırmızı alma gördü, onu evinə apardı. Almanı yarı bölüb, yarısını özü arvadı ilə yedi, yarısını isə qardaşıgilə verdi. 9 ay sonra Əhmədin bir oğlu, Məhəmmədin isə qızı doğuldu. Qardaşlar razılığa gəldilər və həmin gün övladlarını bir-birinə göbəkkəsmə etdilər (1, 204). Nağıldan görünür ki, bu nigah valideynlərin sövdələşməsinin nəticəsində baş vermiş və əslində elmi ədəbiyyatda «ortokuzen» adlanan bir forma olmuşdur. Əmioğlu və əmiqızının nigahı ortokuzen, dayı və bibi uşaqları arasında bağlanan nigahlar isə kromkuzen nigah hesab olunur və dünya xalqlarının bir çoxunda hələ ibtidai icma cəmiyyəti dövründən etibarən tətbiq olunur.

Etnoqrafik tədqiqatlar da göstərir ki, keçmişdə göbəkkəsmə adəti əsasən qardaş uşaqları arasında yayılmış, lakin çox vaxt uğursuzluqla nəticələnməsinə baxmayaraq, uzun müddət tətbiq olunmuşdu. Belə ki, körpəlikdən göbəkkəsmə edilmiş uşaqlar böyüdükdən sonra müxtəlif problemlərlə üzləşməli olurdular. Belə halların qarşısını almaq məqsədilə «deyiklilər» sınaqdan keçirilirdi. «İbrahim» nağılında təsvir olunur ki, Əhməd kişi hələ oğlu uşaqkən vəfat edir. «Məhəmməd qardaşına verdiyi vədə sadiq qalmaqla yanaşı, qardaşı oğlu İbra-

himi sınamaq qərarına gəlir. Məhəmməd uzun müddət İbrahimə öz qızını göstərmir və oğlana deyir ki, qızımın bir gözü kor, bir qıçı topal, həm də keçəl və çopurdur. Sənin kimi dərrakəli, gözəl oğlana layiq deyil». Bununla İbrahimi sınayan Məhəmməd İbrahimdən istədiyi cavabı alır. İbrahim əmisi qızının onun göbəkkəsməsi olduğunu bildirir və onun xarici görünüşünə baxmayaraq onunla evlənməyə hazır olduğunu bildirir. Bu nağılda etnoqrafik cəhətdən maraqlı məqam ailənin ortokuzen nigah əsasında qurulması və ona xüsusi riayət olunmasıdır. Maraqlı bir cəhət isə ortokuzen nigahla yanaşı, burada matrilokal adətin paralel göstərilməsidir. Nağılda deyilir ki, toy 7 gün, 7gecə İbrahimin əmisinin evində (qız evində) olur, onlar bir müddət qız evində yaşayırlar (4, 69-71).

Nağıllarımızdan birində göbəkkəsmə ilə bağlı fərqli bir məqam da diqqəti cəlb edir. «Yusiflə Sənubər» nağılından aydın olur ki, bu adət əsasən adqoyma günü həyata keçirilir və cəmiyyətin varlı, imkanlı təbəqəsi tərəfindən var-dövlətin nəsildən kənara çıxmasının qarşısını almaq üçün daha çox tətbiq olunurdu. Oxşar məzmun «Moltanı padşahı», «Əhmədlə Sənəm» nağıllarında da müşahidə olunur (4, 104). Bu adətin mənfi cəhətlərindən biri böyüdükdən sonra, deyiklilərin bir-birini istəməməsi, qəbul etməməsi ilə də bağlıdır. Belə ki, oğlan və ya qız nağıllarda vəfasız, xəyanətkar kimi təsvir edilir. El adətinə görə, cəmiyyətin qoyduğu ümumi qaydalara riayət edilmədikdə, həmin şəxs və onun davranışları tənqid edilir ki, həmin hadisə təkrar olunmasın. «Həsən Qaranın nağılı»nda bu nigaha razı olmayan qız cəzalandırılır. Təsvir olunur ki, qız onu sevən öz əmisi oğlunu öldürüb, başını həramibaşıya verir. Lakin harami başçısı bunun əvəzində qızı doğrayır və deyir: «belə oğlanı öldürən qız mənə nə vəfa göstərəcək» (3, 113). Bu hadisə sədaqət, adət-ənənəyə hörmət kimi hisslərin tərbiyəsi və təbliğində mühüm məqamları özündə əks etdirir.

Ekzoqam və endoqam nigah forması da nağıllarda öz əksini tapmışdır. Endoqam nigahların mövcud olduğu şəraitdə həm valideynlər, həm də gənclər bir-birini tanıyırdılar. Bu səbəbdən də, oğlanlar qızı bəyənmək, «gözaltı» seçmək üçün çətinlik çəkmirdilər. Lakin ekzoqam nigahlarda, başqa el-obadan qızı tapmaq və bəyənmək lazım idi. Adətən kənar yerdən qız istədikdə elçilikdən əvvəl qızın valideynlərinin fikrini öyrənmək üçün «ara arvadı» göndərilirdi. Azərbaycan şifahi xalq ədəbiyyatında bu məsələ özünün geniş əksini tapmışdır. Nağıllarımızda belə qadınlar iki qismə ayrılır: küpəgirən, aravuran və xeyirxah qarılar. «Küpəgirən» və ya «küp» qarısı nağıllarda belə xarakterizə olunur: «gözləri çaş, ağzı əyri, qılçası topal, beli donqar, qaşqabağından zəhrimar tökülür» (1, 49). Nağıllarda həm də sehrbaz kimi göstərilən belə qadınlar daim pislənir, onların əməlləri nağılın sonunda puça çıxır, onlar istəklərinə nail ola bilmirlər.

Ekzoqam nigahlarda başlıq almaq daha çox müşahidə olunmuşdur. Başlıq kimi müəyyən miqdar pul, qiymətli metal, daş-qaş və mal-qara tələb olunurdu. «Axvax» nağılında deyilir ki, Səlim üçün elçiliyə gedənlərə qızın atası şərt qoymuşdu: «Gərək qızın özü ağırlığında qızıl gələ» (3, 123). Adətən belə başlıqdan sonra oğlan evi müflisləşirdi. Bu nağılda da təsvir edilir ki, Səlimin

ailəsi tələb olunan qızılı verdikdən sonra tamamilə yoxsula döndü. Müəyyən vaxtlarda isə qız ailəsi bilərəkdən başlığın miqdarını şişirdərək, elçini geri qaytarırdılar. Göründüyü kimi, başlıqdan bir vasitə kimi, rədd cavabının forması, onun ekvivalenti kimi də istifadə olunurdu.

Bütün bu mərasimlərin ardınca nağıllarda toy xüsusi təntənə ilə təsvir olunur. Toy mərasiminin müddəti 7 gün, 7 gecə və ya 40 gün, 40 gecə olmaqla göstərilir. Toydan bir neçə gün əvvəl bəy tərəfindən iki nəfər yaxın «sağdış» və «soldış» seçilir və onlar toy günlərində bəyi müşayiət edirdilər. «Göyçək Fatma» nağılında da sağdış, soldış və yengə haqqında məlumat verilir. Qeyd etmək lazımdır ki, toy günlərində sağ və sol qoruma seçmək adəti digər türk xalqlarında da olmuşdur. Bir çox tədqiqatçılar bunu bəyi pis ruhlardan qorumaq zərurəti ilə əlaqələndirirlər (5, 116). Hal-hazırda xalq içərisində el toylarında hələ də bəyin və ya gəlinin yoldaşları – sağdış və soldışlar təyin edilir.

«Hatəm» nağılında toyla bağlı ailə məişətimizin yeni ünsürlərinə rast gəlmək mümkündür. Nağıldan aydın olur ki, ər evinə aparılmazdan əvvəl gəlinin saçlarını gülabla yuyurdular. «Göyçək Fatma» nağılında qızın saçlarını gülabla yuyub «gərəbənd» topladıqları göstərilir (1, 99). Bu məlumatdan da itib getməkdə olan bir adətimizin izlərini görmək olar. İnanca görə, gəlin ər evinə köçdükdə saçlarında və paltarında heç bir düyün olmamalı idi və bununla əlaqədar olaraq, gəlinin saçını nə hörür, nə də bağlayırdılar. Sadəcə olaraq, boynunun arxasında yumurlayıb – gərbənd edirdilər.

Nağıllarda ailə məişətimizin az öyrənilmiş məsələlərindən biri olan ögey ana və uşaqlar arasındakı münasibətdir. Ögey ana nağıllarda paxıl, kobud, amansız, sərt və zülmkar kimi göstərilirdi. «Göyçək Fatma» nağılında ögey ananın və onun qızının davamlı olaraq cəza tətbiq etməsi və paxıllıqdan Fatmaya qarşı etdikləri hərəkətlər tənqid olunur (1, 37-44). Son nəticədə ögey ananın davranışının pislənməsi yenə də ümumiyyətlə cəmiyyətin münasibəti kimi verilir və göstərilir ki, bütün cəhdlərə baxmayaraq, haqq, ədalət daim əzilən tərəfdə durur.

Qədim azərbaycanlıların etiqadında ibtidai inanclar zaman-zaman aparıcı funksiya daşımışdır. Totem hesab olunan müxtəlif heyvanlar sehrli nağıllarda olduğu kimi, digər nağıllarda da hadisələrin müsbət yönümdə inkişafına mühüm təsir göstərən varlıqlar kimi təqdim olunur. Heyvanlar çətinliklə üzləşmiş qəhrəmana yardım edir, onlara sehrli qüvvə verir və şər üzərində qələbə çalmağa yardım edir. «Ovçu Pirim» nağılında ilanın tüpürcəyi Ovçu Pirimə qeyri-adi bacarıq verir və nəticədə o, bütün heyvan və quşların dilini bilir (1, 27). Bundan başqa, ağ ilan müqəddəs və yardımçı, qara ilan isə düşmən kimi göstərilir və ağ ilan ovçunu bədbəxt hadisədən qurtarır. «Daş üzük» nağılında gənc oğlan bazardan aldığı yeşiyi açanda onun içərisindən çıxan ilan, əslində ilanlar şahının qızı olur və sonda ilan-qıza yardım göstərən ailə mükafatlandırılır (1, 123). Dolayısıyla insan toteminə, totem isə insana köməklik edir.

Nağıllarda müqəddəs hesab edilən heyvanlar içərisində it, at, inək və digər heyvanlar aparıcı rol oynayır. «Göyçək Fatma» nağılında göstərilir ki,

Fatma inəklə sirdaş olur, hətta inək kəsildikdən sonra onun sümükləri qıza yardım edir. Azərbaycanlılar içərisində qədim zamanlardan totem səciyyəsi daşıyan digər heyvan at olmuşdur. Məlum olduğu kimi, keçmişdə evin giriş qapısından at nalı asılırdı, onun qoruyucu funksiyasına inam var idi. Nağıllarda da at sahibini çətinliklərdən qurtarır, ona nağılın sonuna qədər sədaqətlə xidmət göstərir. «Bəxtiyar», «Qırx qönçə», «Ağ atlı oğlan» nağıllarında atın çətin səfərlərdə və gözlənilməz anlarda yardımı ətraflı təsvir edilir (1, 145-150). Sonralar şifahi xalq yaradıcılığı nümunələrinin bir çoxunda atın qoruyucu funksiyası daim vurğulanır.

Şifahi xalq ədəbiyyatında tez-tez təsadüf olunan göyərçin daim xalq içərisində toxunulmaz və müqəddəs hesab olunmuşdur. «Daş üzük» nağılında oğlan anasının bazarda satmaq üçün verdiyi yumağı göyərçinlə dəyişdirir və gəncin sonrakı taleyində həmin göyərçin mühüm rol oynayır və çətin anlarda ona kömək edir. Hal-hazırkı inanclara əsasən, göyərçin yenə də toxunulmaz hesab olunur və hətta onun müxtəlif xəstəliklərin müalicəsində istifadəsi müsbət qarşılanır. Adətən, ailədə övladları gec dil açan valideynlər göyərçin yumurtasını həmin uşağa içirtməklə, onun tez danışa biləcəyinə inanırdılar. Oxşar funksiya simurq quşuna da aid edilə bilər. Nağıllarda quşun lələyinin yandırılması ilə onun çətinlikdə olan adama yardım etməsi dəfələrlə rast gəlinmiş hallardandır. «Ağ atlı oğlan» nağılında Nərbala quşun tükünü yandıran kimi quş onun dediklərini hazır edirdi (2, 86-119).

Nağıllarda bir çox meyvə ağacları və otlara etiqad da öz əksini tapmışdır. İbtidai inanclardan olan animizmin bu və ya digər əlamətləri demək olar ki, məişətlə bağlı məsələlərdə müşahidə olunmuşdur. Adətən sehrli qüdrətə malik olan meyvələrin içərisində alma nağıllarda xüsusi yer tutur. Nağıllarda bəzi hallarda «qızıl» və ya «qırmızı» alma ifadəsi işlənir. Alma insanlara sevinc gətirir, onları arzularına çatdırır. «Məlikməmməd», «Bəxtiyar», «Axvax», «Sehrli üzük», «Ağ atlı oğlan» nağıllarında alma hadisələrin gedişində aparıcı mövqe tutur, almanı yeyən xəstə sağalır, qoca gəncləşir, ailə qurmaq istəyən qızlar seçimlərini alma atmaqla göstərir və alma cənnət meyvəsi kimi təqdim olunur. Nağılların sonunda da daim göydən üç alma düşür. Azərbaycan məişətindəki bir çox mərasimlərdə alma əsas yer tutmuşdur. Etnoqrafik müşahidələr göstərir ki, keçmişdə bəzi rayonlarda gəlin ata minib ər evinə yola düşəndə bəy gəlinə alma atırdı və ya bəy üçün bəzədilmiş xonçalara hökmən alma qoyulurdu.

Nağıllarda islam dini ilə bağlı inamlar, müsəlmançılığı göstərən məqamlar, izlər də müşahidə olunmaqdadır. Şifahi xalq ədəbiyyatı nümunələrindən məlum olur ki, ölünü ağ kəfənə büküb dəfn edirdilər. «Aldərviş» nağılında qardaşının bağışlanmasını xahiş edən Say Ərən «ağ kəfənə bürünərək» atasının yanına getmişdi (4, 201). Bu adət keçmişdə ağsaqqalların məsləhəti ilə iki qanlı düşmən arasında barışıq təşkil edilərkən icra olunurdu. Bu zaman qanlılardan biri ağsaqqalın müşayəti altında kəfəni boynuna ataraq, digərinin yanına gəlir və bağışlanmasını xahiş edir, o birisi isə onu bağışlayır və bundan

sonra kin saxlamayacağına dair Qurana and içirdi. Folklor nümunələrindən göründüyü kimi, keçmişdə And müqəddəs hesab olunurdu və onu pozmaq olmazdı. «Aldərviş» nağılında da bunu görmək mümkündür.

Nağılların demək olar ki, hamısında müsbət keyfiyyətlər təbliğ olunur, tənbəllik, qorxaqlıq, ikiüzlülük tənqid olunur. Cəsarət, ədalət, sədaqət, dostluq, qarşılıqlı yardım istər insan, İstərsə də heyvan obrazları ilə göstərilir. Nağıllarda div obrazı nə qədər güclü təsvir olunsa da, əsas qəhrəman ağlının və ətrafındakıların yardımı ilə ona son anda qalib gəlməyi bacarır. Bu, nağılların əsasını təşkil edən xeyirin şər üzərində qələbəsinin göstəricisi olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı inciləri. Bakı: Azərnəşr, 1985, 430 s.
2. Azərbaycan nağılları. Bakı: Turan, 2001, 320 s.
3. Azərbaycan nağılları. 5 cilddə, III c. Bakı: Azərb.SSR EA-nın Nəşriyyatı, 1962, 282 s.
4. Azərbaycan nağılları. 5 cilddə, IVs., Azərb.SSR EA-nın Nəşriyyatı, ,Bakı,1963, 288 s.
5. Həkimov M.İ. Xalqımızın deyimləri və duyumları. Bakı: İşıq, 1968, 265 s.
6. Кагаров Е.Г. Состав и происхождение свадебной обрядности/ Сборник музея антропологии и этнографии Т.8, М.: Музеи, 1929, с.116


## О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ СЕМЕЙНО-БЫТОВЫХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКИХ СКАЗКАХ


**А.Т.АБДУЛЛАЕВ**


### РЕЗЮМЕ


Азербайджанские сказки имеют особое место в изучении семейно-бытовых отношений. В сказках отражаются древние обычаи, борьба между злым и добрым духом и в основном пропангандируется высокое человеческое качество. Азербайджанские сказки, отражая разные стороны семейно-бытовых отношений, являются неизменным этнографическим источником.



**Ключевые слова:** сказка, этнография, семейный быт, источник


## SOME FEATURES OF FAMILY RELATIONS IN FOLKTALES OF AZERBAIJAN


**A.T.ABDULLAYEV**


### SUMMARY


Azerbaijan folktales have an essential place in the study of the family relations. The folktales of Azerbaijan deal with ancient traditions, the struggle between the vice and virtue. Azerbaijan folktales de scribe all details of our traditional lives and can be considered ethnographic resources.



**Key words:** folktales, ethnography, family life, resource